

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 11 (21.421)

19 yanvar 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə nitq söyləyib.

Hökumət üzvləri müzakirələrdə çıxış ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Sloveniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İqor Yukiçin etimadnaməsini qəbul edib.

Səfir İqor Yukiç fəxri qarovul dəstəsinin qarşısından keçib.

İqor Yukiç etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafındakı rolu xüsusi vurğulanıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də İsveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İnqrid Tersmanın etimadnaməsini qəbul edib.



## 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar tədbirlər keçirilir



***1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqının azadlıq, müstəqillik arzularını boğmaq üçün Bakıda dəhşətli qırğın törədən sovet imperiyasına ilk etiraz səsini ümummilli liderimiz Heydər Əliyev yüksəldib. Həmin çətin günlərdə Vətəndən uzaqlarda olsa belə, öz millətinin, xalqının taleyinə biganə qala bilməyən ulu öndər həyatını təhlükə qarşısında qoyaraq yenə xalqının harayına səs verib. Ulu öndər yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransı keçirərək əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya kimi pisləyərək sovet rəhbərliyinin cinayətkar əməllərini ifşa edib.***

Bu fikirlər “20 Yanvar – Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi” mövzusunda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində keçirilən elmi konfransda çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev tərəfindən səsləndirilib.

Əvvəlcə 20 Yanvar şəhidlərinin, ölkəmizin azadlığı və ərazi bütövlüyümüzün təmin olunması uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Akademik İsmayıl Hacıyev bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin xüsusi təyinatlıları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təxribat qrupları tərəfindən təşkil olunub. Bu faciənin törədilməsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda “erməni kartı”ndan məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, açıq riyakarlıq, imperiyanın növbəti qəddarlığını ört-basdır etmək üçün qabaqcadan hazırlanmış iftiralar və böhtanlar idi. Çünki sovet rəhbərliyinin “dəlilləri” hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi.

Vurğulanıb ki, 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymətin verilməsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1990-cı il noyabrın 21-də məhz ulu öndərimizin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul edib. Daha sonra görkəmli dövlət xadimi Heydər Əliyevin 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanla Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunub. Milli Məclis 1994-cü il martın 29-da faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verib.

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin “20 Yanvar faciəsi ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət”, institutun şöbə müdiri, dosent Asəf Orucovun “Ümummilli lider Heydər Əliyev və 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi”, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “Şəhidlərimiz milli qürurumuzdur”, institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilovun “Qanlı Yanvarın nəticələri və ibrət dərsləri” mövzularında məruzələri dinlənilib.

Bildirilib ki, 20 Yanvarda milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Vurğulanıb ki, beynəlxalq birlik 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tbilisi, 1991-ci ilin Riqa və Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciəyə fərqli prizmadan baxdı. 1990-cı ilin dekabrında isə Qorbaçova hətta Nobel sülh mükafatı da verildi. Azərbaycanın ovaxtkı rəhbərliyinin cəsarətsiz və qorxaq siyasəti, kölə psixologiyası üzündən 20 Yanvar nəinki beynəlxalq, hətta ittifaq müstəvisində də layiq olduğu hüquqi-siyasi qiyməti almadı. Bu qanlı faciədən sonra Azərbaycan rəhbərliyinin atdığı addımlar cəsarətsizlik və siyasi təslimçilik nümayişi idi. Ulu öndər Heydər Əliyev 20 Yanvar faciəsinə əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisi, daha sonra isə Azərbaycan Respublikası Milli Məclisi səviyyəsində siyasi-hüquqi qiymətin verilməsini təmin etməklə bütün bunlara son qoydu, həqiqət carçısı olan xalqımızın, millətimizin, dövlətimizin siyasi iradəsini nümayiş etdirdi.

***Naxçıvan Dövlət Universitetində də 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.***

“Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misligörünməmiş faciəyə gətirib çıxardı”. Bu fikirləri tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov səsləndirib. Rektor bildirib ki, ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atılıb.

Tədbirdə İqtisad fakültəsinin dekan müavini, dosent Teymur Abbasovun “Xalqımızın qan yaddaşı”, Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynovun “20 Yanvar faciəsinin tarixi”, tələbələrdən Nəsrin Əliyevanın “20 Yanvar faciəsi gəncliyin yaddaşında”, Zeynalabdin Cəfərovun “20 Yanvar xalqımızın qürur və şərəf günüdür” mövzularında məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

Vurğulanıb ki, Azərbaycan xalqının məruz qaldığı bu təcavüz beynəlxalq müstəvidə hələ də başəriyyət əleyhinə cinayət kimi yetərincə qiymətləndirilmir. Bu faciəni Azərbaycan tarixinə milli əsarətə, qətliama qarşı mübarizə günü kimi yazan qəhrəman şəhidlərimizin müqəddəs xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.

Tədbirdə 20 Yanvar faciəsinə həsr olunan qısametrajlı film nümayiş etdirilib.

* * *

***Dünən “Naxçıvan” Universitetində 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə bağlı konfrans keçirilmişdir.***



Konfransı giriş sözü ilə açan universitetin rektoru, professor İsmayıl Əliyev bildirmişdir ki, hər bir xalqın qan yaddaşında yaşayan, onun milli kimliyində möhkəm yer tutan müəyyən hadisələr olmuşdur. Bu baxımdan 1990-cı ilin 20 yanvar gecəsi Bakıda və Azərbaycanın digər rayonlarında keçmiş sovet imperiyası qoşunlarının törətdiyi qırğınlar o dövrdə Azərbaycana qarşı edilmiş haqsızlıqlara qarşı mübarizə aparan xalqımızın qəhrəmanlıq tarixində mühüm yer tutur. Rektor həmin hadisələrin tarixi dərslərindən danışaraq vurğulamışdır ki, 1990-cı il 20 yanvar gecəsi azərbaycanlılara qarşı törədilmiş qanlı qırğınlara qarşı ilk olaraq öz kəskin etirazını bildirən xalqımızın böyük oğlu Heydər Əliyev yanvarın 21-də xalqımızın haqq səsini bütün dünyaya bəyan etmiş və bu hadisələrə ilk siyasi qiymətini vermişdir.

“Milli azadlıq hərəkatından müstəqilliyə gedən yol” mövzusunda çıxış edən universitetin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev 20 Yanvara gedən yoldakı tarixi proseslərin mahiyyətindən danışaraq qeyd etmişdir ki, Azərbaycanın milli müstəqilliyinin qazanılmasında xalqımızın qəhrəmanlıq tarixindəki həmin günlərin mühüm rolu olmuşdur. Vurğulanmışdır ki, bu tarixin yaxşı öyrənilməsi bugünkü gəncliyin Azərbaycançılıq ruhunda tərbiyə olunmasının əsas qayəsinə çevrilməlidir.

“Qanlı Yanvar hadisəsinin ibrət dərsləri” mövzusunda çıxış edən Ümumi tarix kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi üçün xalqımızın oğul və qızlarının qəhrəmanlıq tarixinin həmişə təbliğ olunması, ondan lazımi nəticə çıxarılması zərurətindən danışmışdır.

Sonra 20 Yanvar faciəsinə həsr olunmuş film nümayiş etdirilmiş, tələbələrin təqdimatında qəhrəmanlıq və vətənpərvərlik mövzusunda şeirlər bədii qiraət olunmuşdur.

Tədbirə universitetin rektoru, professor İsmayıl Əliyev yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# Naxçıvan tarixən müstəqillik və dövlətçilik uğrunda mübarizənin ön cərgəsində yer almışdır

Ötən əsrin 80-ci illərinin sonunda keçmiş Sovetlər İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyət olduqca gərgin idi. Dünyaya meydan oxuyan böyük bir imperiya artıq çökürdü. 1989-cu ilin dekabr ayında muxtar respublikada SSRİ sərhədlərinin dirəklərinin sökülməsi Moskvanı bərk hiddətləndirmişdi. Qısa müddət sonra mərkəz Azərbaycan xalqının azadlıq istəyini boğmaq üçün imperiya qoşunlarını Bakıya yeridərək qanlı 20 Yanvar qırğınını törətdi. Bundan 8 saat əvvəl ermənilər keçmiş sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçdilər. 1989-cu il dekabrın 14-də güclü atəşə tutulan Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən daha intensiv hücumlara məruz qaldı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmiş və Kərki kəndini işğal etmişdilər. Həmin gün Sədərək intensiv top atəşinə tutulmuşdu. Eyni vaxtda ermənilərin məhz yanvarın 19-da cidd-cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi onu göstərirdi ki, onlar Bakıya qoşun yeridiləcəyindən və bununla da, Naxçıvanın köməksiz qalacağından xəbərdar idilər. Bu isə SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi.

Naxçıvanın ərazi bütövlüyünün pozulması, sərhədboyu yaşayış məntəqələrində ermənilərin hücuma keçməsi, əhalinin yaşayışı üçün real təhlükənin artması, nəqliyyat və kommunikasiya blokadası, bunların müqabilində İttifaq və respublika hakimiyyət dairələrinin fəaliyyətsizliyi muxtar respublika sakinlərini qəti qərar qəbul etməyə, ciddi addımlar atmağa sövq etmişdir. Yanvarın 19-da axşam saatlarında Naxçıvan şəhərində Ali Sovetin binası qarşısında toplaşan 20 mindən çox adam Naxçıvana olan hücumlara etiraz əlaməti olaraq Ali Sovetin fövqəladə sessiyasının çağırılmasını təkidlə tələb etmişdir. Sessiya keçirilmiş və sovet imperiyasının yaşadığı bir dövrdə görünməyən bir məsələni müzakirəyə çıxarmışdır: “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaranmış ictimai-siyasi vəziyyət haqqında”. Məsələ müzakirə edilmiş və sessiyada Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması barədə qərar qəbul olunmuşdur. Qərarda göstərilirdi ki, muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir.

Sovetlər Birliyinin yaşadığı dövrdə onun dağılmasına ilk zərbəni vurmağa heç bir xalq, heç bir müttəfiq respublika və ya muxtar respublika cəsarət etməmişdi. Bunu yalnız Vətən uğrunda, azadlıq, müstəqillik uğrunda ölümə meydan oxuyan qəhrəman naxçıvanlılar edə bilmişdi.

Azərbaycanda, xüsusən də Naxçıvanda milli şüurun, azadlıq arzularının bu səviyyəyə yüksəlməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Ümummilli lider hələ Dövlət Təhlükəsizliyi Komitəsində çalışarkən bu qurumdakı bədxahlarımıza – xalqımızın sabahına əngəl törətməyə çalışanlara, milli kadrların irəli getməsinə mane olanlara qarşı mübarizənin önündə gedirdi. Daha doğrusu, ondan başqa həmin mübarizəni təşkil edə biləcək kimsə yox idi. Dahi şəxsiyyət 1969-82-ci illərdə – Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə hələ neçə illər sonra əldə edəcəyimiz dövlət müstəqilliyinə böyük lider məharəti ilə hazırlaşırdı. O, Azərbaycanın sabahını quracaq çoxminli kadrlar ordusunun yetişdirilməsini, ölkənin iqtisadi qüdrətinin və hərbi potensialının artırılmasını daim diqqət mərkəzində saxlayırdı. Ulu öndər Heydər Əliyevin böyük məharətlə nail olduğu bu üç amil siyasi uzaqgörənlik nümunəsi idi. Nəticədə, müstəqil Azərbaycan dövləti qurulanda bizim artıq yüz minlərlə ixtisaslı kadrımız, ali təhsilli mütəxəssisimiz vardı. Azərbaycan ikinci dəfə öz dövlət müstəqilliyinə qovuşanda ölkədə onlarla nəhəng sənaye müəssisələri, çoxlu sayda hərbi texnika, qurğu və avadanlıq var idi. Ən başlıcası hərb elminin bütün incəliklərinə dərindən bələd olan milli kadrlarımız yetişdirilmişdi. Bütün bunlar dahi şəxsiyyətin böyük siyasi uzaqgörənliyinin nəticəsi idi.

Dahi şəxsiyyətin istər Azərbaycan, istərsə də keçmiş Sovetlər Birliyi miqyasında atdığı bütün addımlar milli şüurun yüksəlməsinə, canlanmasına münbit şərait yaratmışdı. Ulu öndər bu xalqa varlığı ilə qürur duymağı öyrətmiş, milli hədəflərə çatmağın yollarını göstərmiş, azadlığın, müstəqilliyin milli-ideoloji aspektlərini hələ Sovetlər Birliyi dönəmində müəyyənləşdirmişdi. 1990-cı ilin yanvar ayının 19-da Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi qərar ümummilli liderimizin ölkəmizə rəhbərliyinin birinci dövründə həyata keçirdiyi tədbirlərlə Azərbaycan xalqına aşıladığı cəsarətdən, müstəqillik ideyalarından qaynaqlanırdı.

Lakin imperiya öz varlığını qorumaq üçün bütün vasitələrə əl atırdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya sovet qoşun hissələri yeridildi və dinc, əliyalın əhaliyə qarşı misligörünməmiş qırğın törədildi.

Yanvar qırğınının başvermə səbəbləri haqqında müxtəlif fikirlər söylənsə də, artıq həmin vaxtadək dünya tarixində analoqu olmayan qətliamın törədilməsindən keçən 26 il ərzində tam sübut olunmuşdur ki, qırmızı imperiyanın bu qətliamı törətməkdə digər dəhşətli planı Bakıya qoşun yeridərək diqqəti paytaxta yönəltmək, blokada şəraitində yaşayan, köməksiz qalan Naxçıvanla əlaqəni kəsməklə bu qədim diyarın ermənilər tərəfindən işğal olunmasına şərait yaratmaq idi.

1990-cı ildə Naxçıvanın işğal təhlükəsindən qorunmasında, həmin tarixi qərarın qəbul edilməsində bölgənin muxtariyyət statusu çox mühüm rol oynamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu barədə demişdir: ***“Ötən əsrin 90-cı illərində – bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır. 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Kərki kəndi ermənilər tərəfindən işğal olunandan sonra, yanvarın 19-da Naxçıvan Ali Soveti “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaranmış ictimai-siyasi vəziyyət haqqında” məsələni müzakirəyə çıxartmış, “Naxçıvanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından və beynəlxalq Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan” Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdi. Bu qərar Sovetlər Birliyinin dağılması, Azərbaycan xalqının və digər müttəfiq respublikaların xalqlarının suverenlik əldə etməsi üçün atılmış ilk addımlardan idi”.***

Sovet İttifaqının rəhbərliyi şok vəziyyətinə düşmüşdü. Çünki onun mövcudluğu dövründə ikinci belə siyasi hadisə baş verməmişdi. Türkiyə və İranla sərhəddə olan, haqlı olaraq Qars, Moskva kimi beynəlxalq müqavilələri əlində rəhbər tutan Naxçıvan MSSR-in bu addımı Qorbaçov rejiminin Azərbaycanı parçalamaqla bağlı planlarına güclü zərbə vurmuşdu. Bakıdakı Qanlı Yanvar qırğınından sonrakı dövr – 1990-cı ilin fevral, mart, aprel, may ayları da blokada vəziyyətində olan Naxçıvanda çox gərgin keçmişdir. 1990-1993-cü illərdə ermənilərin 14 hücumu zamanı Sədərək 109 şəhid vermişdir.

Belə bir çətin dövrdə – 22 iyul 1990-cı ildə doğulub boya-başa çatdığı Naxçıvana gələn ümummilli lider Heydər Əliyevin ətrafında sıx birləşən qədirbilən naxçıvanlılar qanları bahasına doğma yurdumuzu qorudular. 1991-ci il sentyabrın 3-də görkəmli dövlət xadimi Heydər Əliyev əhalinin ciddi təkidi ilə muxtar respublikanın Ali Məclisinə Sədr seçilməyə razılıq vermiş, muxtar respublikaya rəhbərlik etməyə başladığı ilk gündən təcili tədbirlər görmüşdür. 1991-ci il sentyabrın 7-də Naxçıvanın Dövlət Müdafiə Komitəsi təşkil olunmuş, dekabrın 16-da muxtar respublikanın Ali Məclisi hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. 1992-ci il yanvarın 13-də Ali Məclis qanlı 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsini tələb edən bəyanat qəbul etmişdir. Qars müqaviləsinin şərtlərinin yerinə yetirilməsi ilə bağlı Türkiyə tərəfi ilə danışıqlar aparılmış, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat vermişdir. Bu dövrdə Naxçıvan aeroportu yenidən qurulmuş, Culfa-Culfa və Şahtaxtı-Poldəşt keçid məntəqələri, Sədərək-Dilucu körpüsü inşa olunmuşdur. Ulu öndər Heydər Əliyevin sovet ordusunun Naxçıvanda yerləşən hissələrinin komanda heyətləri və Rusiya dövlətinin rəhbərliyi ilə apardığı gərgin danışıqlar nəticəsində 75-ci motoatıcı diviziya və 41-ci sərhəd dəstəsi öz əmlaklarını muxtar respublikadakı milli orduya təhvil verərək Naxçıvan ərazisini tərk etmişlər.

Bu gün hər kəsin ümumi fikri belədir ki, yaşadığı bütün dövrlərdə xalqını, Vətənini düşünən, onun uğrunda çalışan böyük siyasi xadim Heydər Əliyev 1990-cı ildə Azərbaycan rəhbərliyində olsaydı, 20 Yanvar hadisəsi baş verməz, müstəqilliyimizin ilk illərində ölkəmiz ağır günlər yaşamazdı. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə ölkədə hakimiyyətə qayıdışından sonra Azərbaycanın hüquqi-siyasi və sosial-iqtisadi inkişafı, vətəndaş cəmiyyəti quruculuğu, cəmiyyət həyatının müxtəlif sahələrinin tərəqqisi istiqamətində aparılan islahatlar, bu islahatlar nəticəsində yalnız ölkəmizdə deyil, hətta regionumuzda baş verən dəyişikliklər, mütərəqqi yeniliklər ən yaxın tariximizin siyasi reallığıdır. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev də əsası ulu öndər tərəfindən qoyulmuş bu siyasi xətti uğurla davam etdirir.

Əgər ulu öndərimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin birinci dövründə azərbaycanlıların əzmkarlığından yoğrulmuş çox möhkəm bir müdafiə qatının – cəsarətin, milli düşüncənin oyanmasına, formalaşmasına zəmin yaratmasaydı, 1990-cı ildə Naxçıvan qoruna bilməzdi. Ümummilli liderimizin Naxçıvanda işləyib fəaliyyət göstərdiyi dövrdə həyata keçirdiyi tədbirlər, qəbul etdiyi qərarlar isə bugünkü müstəqil Azərbaycanın mövcudluğunun təməl daşıdır.

**“Şərq qapısı”**

# Milli qürur günü

***Naxçıvan Müəllimlər İnstitutunda 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunan tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları faciə qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



Tədbiri giriş sözü ilə açan institutun rektoru, professor Oruc Həsənli 20 Yanvar faciəsinin səbəbləri və ağır nəticələri barədə danışıb, hadisəyə siyasi-hüquqi qiymət verilməsində, şəhidlərin xatirəsinin əbədiləşdirilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib.

Ali təhsil ocağının Humanitar və təsviri incəsənət kafedrasının dosenti Xəzər Hüseynov “Azərbaycan milli mücadilə tarixində 20 Yanvar” mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, 20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki və sonrakı faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin bariz nümunəsidir. Həyata keçirilən soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən ilhaq olunması, sonrakı dövrdə 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün halına düşməsi, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, həmin hadisə xalqın iradəsini, milli azadlıq uğrunda mübarizəsini ifadə etdi. 20 Yanvar hadisələri Azərbaycanın tarixinə parlaq səhifə yazdı, milli azadlığımız, müstəqilliyimiz üçün yol açdı.

Sonra institutun Riyaziyyat və tədrisi metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyevin “Xalqımız 20 Yanvar faciəsini unutmayacaq” mövzusunda məruzəsi dinlənilib. Məruzədə qeyd olunub ki, 20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən görkəmli dövlət xadimi Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında xalqımıza qarşı həyata keçirilmiş bu cinayəti pisləyib, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi ittiham edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında ümummilli liderin təşəbbüsü ilə qəbul edilən “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılıb, “1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı” qəbul olunub. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib.

Tədbirdə tələbələr tərəfindən 20 Yanvar faciəsinə həsr olunmuş şeirlər bədii qiraət edilib.

**✍ Səbuhi HÜSEYNOV**

# 20 Yanvar faciəsi qurbanlarının xatirəsi yad edilib

***Yanvarın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Kəngərli Rayon Təşkilatında Azərbaycan xalqının milli azadlıq tarixində mühüm səhifə təşkil edən 20 Yanvar faciəsinə həsr olunan tədbir keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları 20 Yanvar faciəsinə həsr olunmuş sərgiyə baxıblar.

Azərbaycanın ərazi bütövlüyü, dövlət müstəqilliyi uğrunda canından keçmiş vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə YAP Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quluyeva açaraq 20 Yanvar faciəsi haqqında danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Kəngərli rayon təşkilatının sədri İsmayıl Hüseynquliyev və YAP Kəngərli Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Süleyman Süleymanov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet qoşunlarının yeridilməsinin məqsədi xalqın milli azadlıq əzmini boğmaq və xalq hərəkatını yatırmaqdan ibarət idi. O müdhiş qış gecəsində 147 nəfər xüsusi amansızlıqla qətlə yetirilib, 800 nəfərdən çox adam yaralanıb və şikəst edilib.

Bu qanlı hadisələrdən əvvəl ermənilər Naxçıvana hücumlar etməyə başlayıblar. Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünə hərbi müdaxilə qanlı hadisələrlə yadda qalsa da, bu hadisələr naxçıvanlıların döyüş əzmi, vətən məhəbbəti və qəhrəmanlığı ilə iftixar yaratmaqdadır.

Çıxışlarda vurğulanıb ki, faciənin ertəsi günü ilk dəfə olaraq məhz ümummilli lider Heydər Əliyev böyük cəsarət nümayiş etdirərək Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə qarşı etiraz səsini ucaldıb, bütün dünyaya bu qanlı hadisə və Azərbaycan xalqına qarşı törədilmiş vəhşi cinayət haqqında məlumat verib.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 21-də keçirilən sessiyasında ümummilli lider Heydər Əliyevin xalq deputatı kimi təşəbbüsü ilə 1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında qərar layihəsi işlənib hazırlanaraq müzakirə edilib, qaldırılan bu taleyüklü məsələ xalq deputatları tərəfindən qətiyyətlə müdafiə olunub. Bu qərar həm də xalqımızın faciəsinə və istilaçıların cinayətinə qarşı verilən ilk siyasi-hüquqi qiymət idi.

Tədbirdə 20 Yanvar faciəsinə həsr olunmuş film nümayiş etdirilib.

**Malik QASIMOV**



# Qəhrəmanlıq tariximizin yaşadıldığı ünvan – *Xatirə Muzeyi*

***Qədim və zəngin tarixə malik olan Naxçıvan şəhərində 13 muzey var. Onlardan biri digərlərindən fərqlənir. O muzey and yerimiz, həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimiz sayılan Şəhidlər xiyabanının yanında yerləşir. Mənaca böyük əhəmiyyət daşıyır bu muzey. Bugünkü gəncliyə örnəkdir. Burada nümayiş etdirilən hər bir eksponat insanları düşünməyə vadar edir, tamaşaçıya vətənpərvərlik ruhu aşılayır. "Vətən sevgisi nədir?", "Biz Vətən üçün nə etməliyik?", "Vətəni necə qorumaq lazımdır?" kimi suallara ən dolğun cavabı burada öyrənmək olar. Bu düşüncələrlə muzeyi gəzirəm.***

Buradakı eksponatlar qəhrəman oğul və qızlarımızın keçdiyi yolları gözlərim önünə gətirir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitabların hər biri ən qiymətli eksponatlardır. Guşələrin birindən haqq səsimiz ucalır. Bu, Azərbaycan xalqının başına gətirilən hadisələrə siyasi-hüquqi qiymət verilməsi istiqamətində xalqımızın ümummilli lideri Heydər Əliyevin gördüyü işlər və bu sahədə qəbul etdiyi mühüm qərarlardır. Muzeydə nümayiş etdirilən 400-ə yaxın eksponatın hər birində müstəqilliyə qovuşduğumuz günə qədər olan tariximizin qanlı və şanlı səhifələri bir çox mətləblərdən xəbər verir. 1918-1920-ci illərdə Naxçıvanda ermənilərin törətdikləri qanlı cinayətlər, 1937-1938-ci illərin repressiya qurbanları, 1941-1945-ci illər müharibəsinin iştirakçıları haqqında məlumatlar hər birimizi daha da mübarizləşdirir. 20 Yanvar faciəsinə həsr olunmuş guşə məni 26 il əvvələ qaytarır. O vaxt uşaq olmuşam. Həmin hadisələri gözlərimlə görməsəm də, oxuduğum kitablar, yaşlıların söhbətləri mənə bu barədə xeyli bilgi verib. Həmin bilgilər burada bir qədər də cilalanıb zənginləşir. Buradakı fotoşəkillər azadlığı, ərazi bütövlüyü, doğma torpaqları uğrunda mübarizəyə qalxan insanlara divan tutulmasına, yüzlərlə günahsızın qətlə yetirilməsinə şahidlik edir.

20 Yanvar hadisələrinə həsr olunmuş digər guşədən aydın olur ki, bu hadisələr təkcə azğınlaşmış sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayətlərlə tamamlanmayıb. Həmin ərəfədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə də erməni silahlılarının işğalçı hücumları olub. 1990-cı il yanvarın 15-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal edilib, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə, muxtar respublikanın digər sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumları başlayıb. Bu, 20 Yanvar faciəsinin ilk qanlı səhifələri idi. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə naxçıvanlılar düşmənə qarşı mərdliklə, qəhrəmancasına mübarizə aparıblar, şəhidlər veriblər, Naxçıvanı qoruyub saxlayıblar.



Xocalı faciəsinə həsr olunmuş guşəyə yaxınlaşıram. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayının 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etməsi eksponatlarda öz əksini tapıb. İnsanın qanını donduran fotoşəkillər bunu bir daha bizə xatırladır.

Eksponatlara baxanda düşünürsən ki, xalqımızın başına gətirilən bu müsibətlər iradəmizi, milli azadlıq uğrunda mübarizə əzmimizi qıra bilmədi. Bu faciələr Azərbaycan xalqının tarixinə qəhrəmanlıq səhifələri yazdı.

Guşələrin bir neçəsində torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanlar haqqında məlumatlar, fotoşəkillər, onların şəxsi əşyaları insanı həm kövrəldir, həm də bizə bu günə və sabaha cavabdehlik hissi aşılayır. Əminliklə düşünürsən ki, onlar heç vaxt unudulmayacaqlar. Daim ehtiramla, böyük minnətdarlıq hissləri ilə xatırlanan şəhidlərimiz xalqımızın qəlbində əbədi yaşayacaqlar. Onlar xalqın azadlığı yolunda canlarından keçməyə hazır olduqlarını göstəriblər və bu yolu qəhrəmanlıqla qət ediblər. Ölümə gedən yol onları ölməzliyə, əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurub.



Qeyd edim ki, muzey məktəb-muzey şəbəkəsinə qoşulub. Burada mütəmadi interaktiv dərslər keçirilir. Dərslər zamanı muzeydəki eksponatlar və xalqımızın qəhrəmanlıq tarixi barədə yeniyetmə və gənclərə ətraflı məlumat verilir.

Muzeydən hansı hisslərlə ayrılıram? Qəlbimdə qürur hissi. Çünki Azərbaycanım indi azad, müstəqil bir dövlətdir. Güclü, düşmənin hər bir həmləsinə layiqli cavab verə biləcək ordumuz var. Azərbaycan səmalarında üçrəngli bayrağımız dalğalanır. O bayraq ki ötən əsrin əvvəllərində qəhrəman Azərbaycan xalqı onu başı üstə qaldırmışdı. Əsrin sonlarında isə yenə də Azərbaycan övladı onu enməmək üzrə bir daha qaldırdı, ucaltdıqca ucaltdı. O meydanlara toplaşanların hər biri bayrağımızı müqəddəs bilən bayraqdarlara çevrildi; ağır, qanlı-qadalı günlərdə düşmənə qarşı sinəsini sipərə çevirən bayraqdarlara. Bu gün üçrəngli bayraq altında yumruq kimi birləşməklə o günləri xatırlayırıq. Bu yumruqla azadlığına, müstəqilliyinə qovuşan bir xalqın övladları olmaqdan qürur duyuruq. O xalq ki Vətən uğrunda şəhid verməyə daim hazırdır, onun azadlığını qorumağa da. Müdriklərin belə bir sözü var: "Şəhidi olan xalq irəlini daha yaxşı görər". Düşmən yaxşı bilməlidir ki, günahsız tökülən qan yerdə qalmayacaq.

**Sara ƏZİMOVA**

# 20 Yanvar faciəsinə həsr olunmuş rəsm sərgisi



***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikada fəaliyyət göstərən rəssamların əsərlərindən ibarət "Tariximizin qəhrəmanlıq salnaməsi" mövzusunda rəsm sərgisi təşkil olunub.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək 20 Yanvar faciəsini xalqımızın qürur tarixi, qəhrəmanlıq salnaməsi kimi qiymətləndirib.

Ülviyyə Həmzəyeva bildirib ki, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet imperiyasının silahlı qüvvələri Bakıya daxil olaraq dinc əhalini, əliyalın insanları güllələbaran edib. Bu tarix Azərbaycan xalqının yaddaşına müstəqilliyin qazanılması uğrunda mübarizənin zirvəsi kimi əbədi həkk olunub.

"Muxtar respublikada fəaliyyət göstərən rəssamlar şəhidlərimizə ehtiram əlaməti olaraq bu mövzuya tez-tez müraciət edir, silsilə əsərlər yaradırlar", – deyən Ülviyyə Həmzəyeva qeyd edib ki, bugünkü sərgidə 20 Yanvar hadisələri rənglərin dili ilə sənətsevərlərimizə təqdim edilir. Bu istiqamətdə işlər davam etdirilir. Belə ki, yanvarın 19-da Qanlı Yanvar faciəsinə həsr olunmuş müsabiqədə uğur qazanan əsərlərin Bəhruz Kəngərli adına Sərgi Salonunda sərgisi təşkil olunacaqdır. Müsabiqədə Naxçıvan Dövlət Universitetinin, "Naxçıvan" Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri iştirak ediblər.




Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev bildirib ki, hər birimizin yaddaşına əbədi həkk olunan həmin o məşəqqətli günlər Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. 1990-cı ilin 20 Yanvar günü uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Rəssamlarımız əsərlərində daim bu mövzuya müraciət edir, xalqımızın qəhrəmanlıqlarla zəngin mübarizə tarixini əsərlərində canlandırırlar.

Naxçıvan Dövlət Rəsm Qalereyasının müdiri Hökümə Məmmədli, Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli çıxışlarında qeyd ediblər ki, 20 Yanvar hadisəsi Azərbaycan xalqının milli qürur, milli iftixar günü, xalqımızın qəhrəmanlıq mübarizəsinin şanlı səhifəsidir.

Sonra sərgiyə baxış olub.

Rafail Qədimovun "Kədər", İsmayıl Əliyevin "Fəryad", Fikrət Babayevin "Şəhid", Mircəlil Seyidovun "Aqressor", Natiq İsmayılovun "20 Yanvar" və digər rəsm əsərləri sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Sərgidə 20 rəssamın 50 rəsm əsəri nümayiş etdirilir.

**Rauf ƏLİYEV**

# Tariximizin qəhrəmanlıq salnaməsi

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında da 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bildirib ki, yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq qaldığını və azad yaşamağa layiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu ağrılı-acılı günlər həm də sınaq dövrü kimi yadda qaldı. Ancaq əfsuslar olsun ki, başları hakimiyyət uğrunda mübarizəyə qarışmış "siyasətçilər" xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Məhz ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə bu faciəyə ilk siyasi-hüquqi qiymət verildi.



Tədbirdə şuranın əməkdaşlarından Səbuhi Hüseynov, Yəmən Rzayeva, Ceyhun Məmmədov, Leyla Abbasova, Pərvin Əsədli, Taliyə Bağırova, Eyvaz Əsgərov çıxış edərək bildiriblər ki, haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. 1990-cı ilin 20 Yanvarı elə şanlı tarixdir ki, əsrlər keçsə də, xalqımızın yaddaşından silinməyəcək, həmişə yad ediləcəkdir.

* * *

Naxçıvan Dövlət Texniki Kollecində də 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə kollecin direktor əvəzi Asəf Ruşanov çıxış edərək bildirmişdir ki, XX əsrin ən qanlı terror aktlarından biri olan 20 Yanvar qırğını Azərbaycan xalqına, ümumiyyətlə, humanizmə və insanlığa qarşı yönəldilmiş dəhşətli cinayətdir. Bununla bərabər, o müdhiş gecə tariximizə təkcə faciə kimi deyil, həm də Azərbaycan xalqının mübarizlik, dönməzlik, çağdaş milli azadlıq hərəkatının qəhrəmanlıq günü kimi daxil olmuşdur. Yanvarın 19-dan 20-nə keçən gecə yüzlərlə qəhrəman oğul və qızımız təpədən-dırnağadək silahlanmış sovet qoşunlarının qarşısına əliyalın çıxmağa qadir olduğunu dünyaya sübut etmişdir. Həmin gün sovet rejiminin hərbi, siyasi təcavüzünə məruz qalmış xalqımız öz qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bir daha göstərmişdir.

Sonra məruzə ətrafında kollecin müəllimi, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynovun, tələbələrdən Elçin Balabəylinin və Aytac Allahverdiyevanın çıxışları olmuşdur. Çıxış edənlər bildirmişlər ki, 20 Yanvar hadisələri Azərbaycanın müstəqillik mübarizəsi tarixinə faciə və xalqımızın qəhrəmanlıq salnaməsi kimi yazılmışdır. Həmin ağrılı günlər həm də sınaq dövrü kimi yadda qalmışdır. Azərbaycan xalqı həmin gün azad yaşamağa layiq olduğunu bütün dünyaya sübut etmişdir.

Tədbirdə 20 Yanvar faciəsinə həsr olunmuş şeirlər bədii qiraət edilmiş, rəsm sərgisinə baxış olmuşdur.

**Xəbərlər şöbəsi**

## İstehsalçıların və istehlakçıların hüquqları qorunur,
## *gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə davam etdirilir*

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən idxal istiqamətində gətirilən malların keyfiyyətinə, standartlara uyğunluğuna xüsusi fikir verilir, müvafiq tələblərə cavab verməyən mallar barəsində qanunvericilik çərçivəsində tədbirlər görülür.***

Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də mövcud qanunvericiliyin tələblərinə uyğun gəlmədiyindən saxlanılan malların yandırılaraq məhv edilməsidir. Həyata keçirilən növbəti məhvetmə tədbirində yandırılan mallar, əsasən, müxtəlif markalı ərzaq və qida məhsullarından, yuyucu və təmizləyici vasitələrdən, psixotrop tərkibli dərmanlardan, pirotexniki vasitələrdən, müxtəlif təsərrüfat mallarından ibarət olmuşdur. Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə keçirilən məhvetmədə ümumi çəkisi 12 tona yaxın olan mallar yandırılmışdır.

Naxçıvan Gömrük Ekspertizası İdarəsinin laborator rəyləri nəzərə alınaraq 2015-ci ilin ikinci yarısı ərzində 6 ton 895 kiloqram yuyucu vasitənin, ümumi çəkisi 2 tondan artıq olan ərzaq və qida məhsulunun, spirtli içki və meyvə şirələrinin keyfiyyətinin tələblərə cavab vermədiyi müəyyənləşdirilmiş və məhvinə qərar verilmişdir. İki tona yaxın ərzaq və qida məhsulu isə üzərində istehsal və son istifadə tarixinin göstərilməməsi, istehlak müddətinin bitməsi və əmtəə görünüşünün pozulması səbəbindən yandırılmışdır. Keyfiyyət göstəriciləri aşağı olan və müvafiq normalara uyğun gəlməyən malların arasında daha çox uşaqlara alınan qida məhsulları, meyvə şirələri, yuyucu vasitələr və sair olmuşdur.

Məhv edilən mallar arasında kontrafakt, başqa sözlə, saxta mallar da yer almışdır. Məhz 12 min 500 kiloqram qəlyan tütününün, 270 ədəd "ABC" markalı silikon yapışdırıcının, 300 kiloqram "Kalqon" markalı ərp əleyhinə təmizləyicinin istehsalının və qablaşdırılmasının saxta yollarla aparıldığı müəyyən edilmişdir. Məhv edilən saxta mallar içərisində 1 milyon 80 min ədəd aksiz markası, 12 ədəd dövlət nömrə nişanı da olmuşdur.

Müvafiq dövlət orqanlarından xüsusi icazə sənədi alınmadan gətirilən 91 adda müxtəlif dərman preparatları, o cümlədən psixotrop dərmanlar, 6500 ədəddən çox pirotexniki vasitə, 42 ədəd balıq toru da məhv edilmişdir.

Milli mentalitetə mənfi təsir göstərən ədəbiyyat və vasitələrin muxtar respublikaya gətirilməsinə qarşı mübarizə də diqqətdə saxlanılmış, əxlaq qaydalarına zidd olduğu üçün saxlanılmış vasitə və CD-lər də yandırılmışdır.

Milli və iqtisadi təhlükəsizliyin, ictimai asayişin və insanların sağlamlığının qorunması istiqamətində də tədbirlər davam etdirilir. Gömrük-keçid məntəqələrində saxlanılmış 26 ədəd beşbarmaq və 1 ədəd döymə aparatı da xüsusi qaydada məhv olunmuşdur. Xaricdən gətirilən 17 ədəd minik avtomobili şini isə köhnə və yararsız olduğundan məhv edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi əmin edir ki, qanunvericiliyin tələblərinin, istehsalçıların və istehlakçıların hüquqlarının müdafiəsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təminatı, insan sağlamlığının və ətraf mühitin qorunması istiqamətində işlər bundan sonra da davam etdiriləcək, gömrük qaydalarının pozulması hallarına qarşı lazımi tədbirlər görüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Əlincəqalanın tarixinə aid yeni faktlar aşkarlanıb




***Üzərində atlı olan gümüş sikkə***

*Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən 11 fevral 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalanmışdır. Buna uyğun olaraq, Əlincəqalanın tarixini öyrənmək üçün AMEA Naxçıvan Bölməsində AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi ilə xüsusi tədqiqat qrupu yaradılmışdır.*

Tədqiqat qrupunun apardığı araşdırmalar zamanı Vəli Baxşəliyev və Nizami Alıyev tərəfindən biri qurğuşun, digəri isə gümüşdən kəsilən iki sikkə tapılmışdır. Vəli Baxşəliyevin qəzetimizə verdiyi məlumata görə, üzərində ərəb xəlifəsinin təsviri olan qurğuşun sikkənin tarixi hələlik dəqiqləşdirilməmişdir. Üzərində süvari təsviri olan gümüş sikkənin sikkəşünas tədqiqatçı, Bakı Dövlət Universitetinin dosenti Qənirə Pirquliyeva tərəfindən araşdırılması göstərmişdir ki, bu sikkə VII əsrdə Daşkənddə zərb edilmişdir. Bu tapıntı Əlincəqalanın nəinki VII əsrdə mövcud olduğunu, həmçinin Yaxın Şərq və Mərkəzi Asiya ölkələri ilə iqtisadi-mədəni əlaqələrə malik olduğunu göstərir.

Qeyd edək ki, olduqca nadir rast gəlinən bu sikkə indiyədək Azərbaycan ərazisindən aşkar olunmamışdır. Bu sikkənin VII əsrdə bura gətirilməsi hələlik bir müəmma olsa da, Əlincəqalanın əsrarəngiz tarixindən xəbər verir.

**✍ S.ƏZİMOVA**

## 20 Yanvar faciəsi ilə əlaqədar tədbirlər keçirilib

Culfa Rayon Gənclər və İdman İdarəsi, Təhsil, Mədəniyyət və Turizm şöbələrinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə bağlı Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində tədbir keçirilib. Tədbirdə Yaycı kənd 1 nömrəli tam orta məktəbin şagirdləri iştirak ediblər. Muzeyin elmi işçisi Gülnar Bayramova tədbir iştirakçılarına 20 Yanvar hadisələri haqda geniş məlumat verib. Sonra şagirdlər muzeyin eksponatları ilə tanış olublar.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Ordubad Rayon Mədəniyyət Evində 20 Yanvar faciəsinin 26-cı ildönümü münasibətilə Gənclər və İdman İdarəsi, Təhsil, Mədəniyyət və Turizm şöbələrinin təşkilatçılığı ilə tədbir keçirilib. 250 yeniyetmə və gəncin iştirak etdiyi tədbirdə əvvəlcə 20 Yanvar faciəsini özündə əks etdirən ümumtəhsil məktəbləri şagirdlərinin əl işlərindən ibarət sərgiyə baxış olub. Təhsil Şöbəsinin metodisti Əyyar Səfərov tədbiri açaraq bu faciə haqqında geniş məlumat verib.

Sonra ümumtəhsil məktəblərinin şagirdləri 20 Yanvar haqqında ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Sonda isə 20 Yanvar faciəsindən bəhs olunan sənədli film nümayiş etdirilib.

## Şahmat birinciliyi

Culfa Rayon Uşaq-gənclər şahmat idman məktəbində rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr edilmiş şahmatın tempo növü üzrə rayon birinciliyi keçirilib.

Birincilikdə 34 şahmatçı mübarizə aparıb. Yarışdan öncə Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli və Təhsil Şöbəsinin əməkdaşı Ramazan Abuzərov çıxış edərək keçirilən tədbirin mahiyyəti və 20 Yanvar faciəsi haqqında tədbir iştirakçılarına geniş məlumat veriblər.

Yekun nəticəyə əsasən, Culfa şəhər 2 nömrəli tam orta məktəbin VII sinif şagirdi Əli Qulamzadə bütün rəqiblərini üstələyərək qalib adını qazanıb. Culfa şəhər 2 nömrəli tam orta məktəbin VI sinif şagirdi Elcan Qulamzadə ikinci, Culfa şəhər 3 nömrəli tam orta məktəbin V sinif şagirdi Vüsal Hüseynli isə üçüncü olublar.

Qalib və fərqlənən idmançılar Culfa Rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin diplomları ilə təltif ediliblər.

## Atıcılıq üzrə rayon birinciliyinə yekun vurulub

20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Atıcılıq Federasiyasının Şərur rayon bölməsinin birgə təşkilatçılığı ilə atıcılıq üzrə məktəblilər arasında keçirilən birinciliyə yekun vurulub.

Qız və oğlanların ayrılıqda mübarizə apardığı birincilikdə 21 idmançı iştirak edib. Yekun nəticəyə əsasən, oğlanlar arasında Toğrul Balaşov, Pərvin Nəzərov və İsmayıl Səfərzadə müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar. Qızların mübarizəsində Aytən İmanova bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olub. Digər iki pillədə isə Xurşud Mahmudova və Elnarə Nağızadə qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması proseduru hansı qaydada aparılır?*

Cavab: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 21.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında 10 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Həmin məcəllənin 21.2-ci maddəsinə əsasən, əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata alınması üçün, onun qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 10 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini Dövlət Miqrasiya Xidmətinin internet informasiya ehtiyatı, elektron poçt vasitəsilə və ya şəxsən Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir.

***Sual:** Qaçqınların olduğu yer üzrə qeydiyyata alınması qaydası necə müəyyənləşdirilir?*

Cavab: Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 21.6-cı maddəsinə əsasən, Birləşmiş Millətlər Təşkilatının qaçqınlar üzrə ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin himayə müddətinə olduğu yer üzrə qeydiyyatı Dövlət Miqrasiya Xidməti tərəfindən nümayəndəliyin məlumatları əsasında aparılır.

***Sual:** Olduğu yer üzrə qeydiyyata alınmaqla bağlı dövlət rüsumu ödənilirmi?*

Cavab: Qanunvericiliyə uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***


## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi
### *2016-cı il üçün kotirovka elan edir*

*1. Dəftərxana ləvazimatlarının satın alınması.*

*2. Təsərrüfat mallarının satın alınması.*

Kotirovka 2 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 3 fevral 2016-cı il tarixdə saat $15^{00}$-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs:**
**Hənifə Hənifəyev**
**Telefon: 545-65-99**
**Ünvan: Naxçıvan şəhəri,**
**Heydər Əliyev prospekti 76**

## Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsi
### *2016-cı il üçün kotirovka elan edir*

*Dəftərxana ləvazimatlarının satın alınması.*

Kotirovka 4 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 5 fevral 2016-cı il tarixdə saat $15^{00}$-də Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs:**
**Vüsal Həsənov**
**Telefon: 070-570-44-50**
**Ünvan: Şərur şəhəri,**
**Heydər Əliyev prospekti**

## Şahbuz Rayon İcra Hakimiyyəti
### *2016-cı il üçün kotirovka elan edir*

*Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 3 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 4 fevral 2016-cı il tarixdə saat $12^{00}$-də Şahbuz Rayon İcra Hakimiyyətində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs:**
**Elçin Həmidli**
**Telefon: 543-08-14**
**Ünvan: Şahbuz şəhəri,**
**28 May küçəsi**

## Şahbuz şəhərindəki Ahıllar evi
### *2016-cı il üçün kotirovka elan edir*

*Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 3 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 4 fevral 2016-cı il tarixdə saat $11^{00}$-də Şahbuz şəhərindəki Ahıllar Evində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs:**
**Vahid Ramazanov**
**Telefon: 543-07-70**
**Ünvan: Şahbuz şəhəri,**
**Mikayıl Müşfiq küçəsi 1**

## Şahbuz Rayon Təhsil Şöbəsi
### *2016-cı il üçün kotirovka elan edir*

*Dəftərxana ləvazimatlarının satın alınması.*

Kotirovka 3 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 4 fevral 2016-cı il tarixdə saat $11^{00}$-də Şahbuz Rayon Təhsil Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs: Nurlan Xəlilov**
**Telefon: 050-585-50-85, 543-02-35**
**Ünvan: Şahbuz şəhəri,**
**28 May küçəsi**

### *İtmişdir*

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 46, ev 9-da yaşamış Qasımov Zeynalabdin Salman oğlunun adına olan 8506 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 42**